AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

SAHİBKARLARA DÜŞƏN İNFORMASİYA YÜKÜNÜN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ DAİR SEÇMƏ STATİSTİKA MÜAYİNƏSİNİN NƏTİCƏLƏRİ

(müayinə "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"na uyğun olaraq aparılmışdır)

Bakı-2014

Mündəricat

		səh
1.	Mündəricat.....	2
2.	Giriş.....	3
3.	Ümumi müddəalar	3
4.	Statistik müayinənin ümumi planı	4
5.	Əsas məqsədlər	4
6.	Seçmə planın tərtib olunması.....	5
7.	Sorğu anketi (müayinə forması).....	6
8.	Məlumatların toplanması, təhlili, kompyuterlərə daxil edilməsi və işlənməsi	7
9.	Alınmış nəticələrin iqtisadi-statistik təhlili, nəşri və yayımlanması.....	7
10.	Nəticələr və irəli sürülən təkliflər	19
11.	Əlavələr.....	22

Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair statistik müayinənin yekunları

Giriş

"Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair" statistik müayinə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli, 2621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"na uyğun olaraq, sahibkarlığın inkişafına yardım göstərilməsi, mərkəzi icra hakimiyyəti orqanlarının tələbi ilə sahibkarlıq subyektləri tərəfindən tərtib olunan hesabat məlumatlarının həcminin, informasiya yükünün müəyyənləşdirilməsi üçün 2014-cü ilin iyul-avqust aylarında həyata keçirilmişdir.

Müayinənin həyata keçirilməsi üçün "Sahibkarlara düşən informasiya yükünün öyrənilməsinə dair" 1-informasiya yükü nömrəli birdəfəlik sorğu anketi və onun doldurulmasına dair metodoloji göstəriş hazırlanmış və Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə razılaşdırılmışdır.

Ümumi müddəalar

Respondentlərə düşən informasiya yükünün nəzərə alınması BMT-nin "Rəsmi statistikanın əsas prinsipləri"ndə (5-ci prinsip), Avropa İttifaqına üzv ölkələrin və ittifaqın statistika orqanları üçün Avropa statistikasının normalar məcəlləsində və digər beynəlxalq təşkilatların rəsmi sənədlərində öz əksini tapmışdır. Burada məlumatların təqdim olunması üzrə yükün istifadəçilərin tələbatlarına proporsional olması və yükün müəyyənləşdirilməsi üçün monitorinqlərin həyata keçirilməsi, habelə onun azaldılması üçün müvafiq tədbirlərin görülməsi təsbit olunmuşdur. İnformasiya yükünün müəyyənləşdirilməsində sorğu edilən məlumatların respondentin muhasibat sənədlərində mövcudluğu, inzibati mənbələrdən daha çox istifadə, məlumat sorğularının təkrarlanmaması və s. kimi məsələlərin öyrənilməsi müvafiq müşahidənin həyata keçirilməsini zəruri etmişdir.

Cari müşahidəni həyata keçirməklə respondent tərəfindən statistika və digər dövlət qurumlarına təqdim olunan informasiyanın həcmini müəyyənləşdirmək, rəsmi statistika hesabatlarının mövcud vəziyyətinin bilavasitə respondent tərəfindən

qiymətləndirilməsini aparmaq, məlumatların hazırlanması üçün sərf olunan vaxt itkisini, onların bu sahədə qarşılaşdıqları əsas çətinlikləri və təkliflərini öyrənmək mümkün olmuşdur.

Statistik müayinənin ümumi planı

Müayinə prosesi aşağıdakı təşkilati və statistik mərhələrləri əhatə edir:

1. əsas məqsədlərin müəyyənləşdirilməsi;
2. seçmə planının tərtib olunması;
3. müayinə formasının və onun tərtibinə dair göstərişlərin hazırlanması;
4. məlumatların toplanması, təhlili, kömpyuterlərə daxil edilməsi və işlənməsi;
5. alınmış nəticələrin iqtisadi-statistik təhlili, müvafiq təkliflərin hazırlanması
6. nəticələrin nəşri və yayımlanması.

Müayinənin təşkili, idarə olunması və onun gedişinə nəzarəti Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsi, digər sahə şöbələri ilə birgə həyata keçirmişdir.

Əsas məqsədlər

Müayinənin keçirilməsində əsas məqsədləri və onlara nail olmaq üçün əsas prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Sahibkarlardan informasiya yükü haqqında ətraflı məlumatların əldə olunması. Bu məqsədlə:

- rəsmi statistika orqanlarına və ayrı-ayrı dövlət orqanlarına təqdim olunan hesabatlar üzrə informasiya yükünün həcminin iqtisadi fəaliyyət növləri və regionlar üzrə müəyyənləşdirilməsi;
- iqtisadi fəaliyyət növləri üzrə toplanan məlumatların respondentlərin ilkin uçot sənədlərində mövcudluq səviyyəsinin müəyyənləşdirilməsi;
- sahibkarlar tərəfindən rəsmi statistika hesabatı formalarının mövcud vəziyyətinin qiymətləndirilməsinin aparılmasını təmin etmək;
- hesabatın mövcud vəziyyətini qənaətbəxş hesab etməyən sahibkarların fikirlərinin öyrənilməsi;
- sahibkarlar tərəfindən hesabat formasının doldurulmasına sərf edilən vaxtın müəyyənləşdirilməsi;

- sahibkarların hesabatların elektron qaydada doldurulmasına münasibətini müəyyən etmək;
- respondentlər tərəfindən hesabatların elektron formada yerli statistika orqanlarına təqdimetmə imkanlarını müəyyənləşdirmək;
- sahibkarların hesabat formalarını doldurarkən qarşılaşdıqları çətinlikləri öyrənmək;
- sahibkarların bu istiqamətdə təkliflərinin ümumiləşdirilməsi və təhlil edilməsi;
- hesabat formalarının elektron formada təqdim edilməsi zamanı sahibkarların rayon (şəhər) statistika idarələrinin köməyindən yararlanma səviyyəsini öyrənmək.

2. Sahibkarlara düşən informasiya yükünün mövcud vəziyyətinin təhlil olunması;

3. İnformasiya yükünün azaldılması üçün müvafiq təkliflərin hazırlanması və rəhbərliyə təqdim edilməsi;

4. Respondentlərə düşən yükün minimuma endirilməsi üçün statistika fəaliyyətinin davam etdirilməsi.

Seçmə planının tərtib olunması

Baş məcmu. Baş məcmu iqtisadi fəaliyyət növlərinin təsnifatı üzrə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (A seksiyası); mədənçıxarma sənayesi (B seksiyası); emal sənayesi (C seksiyası); elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı (D seksiyası); su təchizatı, tullantıların təmizlənməsi və emalı (E seksiyası); tikinti (F seksiyası); topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri (G seksiyası); nəqliyyat və anbar təsərrüfatı (H seksiyası); yaşayışın təşkili və ictimai iaşə (İ seksiyası); informasiya və rabitə (J seksiyası); daşınmaz əmlakla əlaqədar əməliyyatlar (L seksiyası); peşə, elmi və texniki fəaliyyət (M seksiyası); inzibati və yardımçı xidmətlərin göstərilməsi (N seksiyası); təhsil (P seksiyası); əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (Q seksiyası); istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (R seksiyası); digər sahələrdə xidmətlərin göstərilməsi (S seksiyası) üzrə müəssisələri, habelə bu sahələr üzrə fəaliyyət göstərən fərdi sahibkarları əhatə edir.

Seçmə məcmu. Müayinədə 01.01.2014-cü il vəziyyətinə fəaliyyət göstərmiş hüquqi şəxslərdən iri müəssisələr başdan-başa olmaqla, kiçik müəssisələrin ən azı

10%-i, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların isə 5%-i sorğuya cəlb olunmuşdur.

Seçmə təbəqələri (stratalar). Seçmə məcmunun təbəqələrə bölünməsi subyektlərin fəaliyyət növləri üzrə bölgüsü və işçilərin orta illik sayı əsasında aparılmışdır.

Seçmə vahidlərinin müəyyənləşdirilməsi. Seçmə vahidi seçməyə düşmüş, yəni bilavasitə sorğu edilən hüquqi və ya fiziki şəxs olmuşdur. Bu vahidlər sadə təsadüfi seçmə qaydada, bərabər ehtimal prinsipi ilə müəyyənləşdirilmiş, hər bir vahidin seçməyə düşmə şansı eyni olmuşdur. Bu prosesi həyata keçirmək üçün sahibkarlıq subyektlərinin baş məcmusu regionlar və fəaliyyət növlərinə görə qruplaşdırılmış və hər bir qrup daxilində təsadüfi qaydada seçmə aparılmışdır.

Sorğu anketi (müayinə forması)

Sorğu anketi zəruri suallar əks olunan blank formasıdır. Sorğu anketində aşağıdakı suallar əhatə olunmuşdur:

1. Hazırda dövlət orqanlarına (Dövlət Statistika Komitəsinə, Vergilər Nazirliyinə, Maliyyə Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Energetika Nazirliyinə, Əmlak Məsələləri Dövlət Komitəsinə, Fövqəladə Hallar Nazirliyinə, tabe olduğunuz yuxarı təşkilata) neçə hesabat və göstərici təqdim edirsiniz?

2. Rəsmi statistika hesabatlarında (sorğularda) tələb edilən məlumatlar mühasibat və ya digər ilkin uçot sənədlərində (əgər aparılırsa) hansı səviyyədə mövcuddur? (%-lə)

3. Rəsmi statistika hesabatlarının mövcud vəziyyəti Sizi qane edirmi?

4. Əgər rəsmi statistika hesabatlarının mövcud vəziyyəti Sizi qane etmirsə və ya qismən qane edirsə səbəbini göstərin;

5. Orta hesabla bir hesabat formasının (30-40 sualdan ibarət hesabat formasının timsalında) doldurulması üçün sərf edilən vaxt;

6. Doldurulması daha çətin olan statistika hesabatı formalarını göstərin;

7. Siz statistika hesabatlarını elektron formada www.stat.gov.az internet səhifəsində real vaxt rejimində təqdim edirsinizmi?

8. Statistika hesabatlarının elektron formada real vaxt rejimində təqdimatı zamanı hər hansı çətinliklərinizyaranırmı?

9. Hesabat formalarını elektron formada real vaxt rejimində doldurarkən əsasən hansı çətinliklərlə qarşılaşırsınız?

10. Siz statistika hesabatlarının doldurulması zamanı məlumat əldə etmək üçün Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) yerləşdirilmiş metodoloji göstərişlərdən istifadə edirsinizmi?

11.Əgər istifadə etmirsinizsə, onda səbəbini göstərin;

12. Dövlət Statistika Komitəsinin internet səhifəsində hesabat formalarının elektron formada təqdim edilməsi zamanı rayon (şəhər) statistika idarələrinin köməyindən yararlana bilirsinizmi?

13. Əsasən hansı istiqamətlərdə rayon (şəhər) statistika idarələrinin köməyinə ehtiyac duyursunuz?:

14. Üzərinizə düşən informasiya yükünün yüngülləşdirilməsi üçün Sizin təkliflәriniz.

Məlumatların toplanması, təhlili, kömpyuterlərə daxil edilməsi və işlənməsi

Sorğu anketləri sahibkarlar tərəfindən doldurularaq təqdim edildikdən sonra onların tam və doğru doldurulma vəziyyəti ilkin qəbul zamanı və məlumatların kömpyuterlərə daxil edilməsi prosesində məlum olur. Bu məqsədlə, hesabat formasının kompyuterə giriş sənədlərində (proqram təminatında) suallar üzrə nəzarət qeydləri aparılmış, məlumatlar toplandıqdan, yoxlandıqdan və kömpyuterlərə daxil edildikdən sonra onlar emal olunaraq çıxış cədvəlləri hazırlanmışdır.

Alınmış nəticələrin iqtisadi-statistik təhlili, nəşri və yayımlanması

Müayinədə iştirak etmiş sahibkarlar. Aparılmış sorğu vasitəsilə 15134 hüquqi və fiziki şəxsin cavabları ümumiləşdirilərək məlumatlar təhlil edilmişdir ki, bunun da 6828 nəfəri (45,1 faizi) hüquqi şəxslərin (müəssisələr), 8306 nəfəri (54,9 faizi) isə fərdi sahibkarların (fiziki şəxslər) payına düşmüşdür. Təsərrüfat subyektlərinin 33,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,0 faizi sənaye, 10,9 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 6,2 faizi peşə, elmi və texniki fəaliyyət, 6,0 faizi tikinti, hərəsində 5,0 faiz olmaqla nəqliyyat və anbar təsərrüfatı və turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3,9 faizi təhsil, 3,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 9,9 faizi isə iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərirlər.

Müayinədə iştirak etmiş hüquqi şəxslər əsas etibarilə ticarət; nəqliyyat vasitələrinin təmiri – 14,3 faiz, sənaye – 12,6 faiz, tikinti – 10,8 faiz, peşə, elmi və texniki fəaliyyət – 9,4 faiz, təhsil – 7,6 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi – 7,3 faiz, digər sahələrdə xidmətlərin göstərilməsi – 6,5 faiz, nəqliyyat və anbar təsərrüfatı – 6,2 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq – 6,2 faiz və iqtisadiyyatın digər sahələrində (19,1 faiz) cəmləşmişlər.

Fərdi sahibkarların 49,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 14,5 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 11,6 faizi sənaye, 6,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 14,4 faizi isə iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərənlər olmuşlar.

Sorğuya cəlb edilmiş hüquqi və fiziki şəxslərin 41,1 faizi Bakı şəhərinin, 16,3 faizi Aran, 11,3 faizi Gəncə-Qazax, 6,6 faizi Abşeron, 6,0 faizi Şəki-Zaqatala, 5,7 faizi Lənkəran, 4,6 faizi Quba-Xaçmaz, 3,5 faizi Naxçıvan, 2,8 faizi Dağlıq Şirvan, 2,1 faizi Yuxarı Qarabağ iqtisadi rayonunun payına düşmüşdür.

2014-cü ildə "Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair" keçirilmiş statistik müayinəyə sayı 2008-ci ildə keçirilmiş eyni məzmunlu müayinə ilə müqayisədə 2,3 dəfə artıq (müvafiq olaraq hüquqi şəxslər üzrə 5,8 dəfə, fiziki şəxslər üzrə 1,6 dəfə çox) respondent cəlb edilmişdir. Respondentlərin sayı 2008-ci illə müqayisədə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2,5 dəfə, sənayedə 3,2 dəfə, tikintidə 4,9 dəfə, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 12,2 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 1,9 dəfə, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 10,0 dəfə, digər sahələrdə xidmətlərin göstərilməsi üzrə 20,8 dəfə artırılmışdır.

Dövlət orqanlarına təqdim olunan hesabatların və göstəricilərin sayı. Aparılmış müayinədə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri hüquqi şəxslərin (müəssisələrin) və fərdi sahibkarların ayrı-ayrı dövlət orqanlarına müxtəlif dövrilikdə davamlı və ya birdəfəlik qaydada təqdim etdikləri hesabatların sayı və onlarda əks etdirilən göstəricilərin sayının öyrənilməsi olmuşdur.

Məlum olmuşdur ki, orta hesabla bir hüquqi şəxs tərəfindən ayrı-ayrı dövlət orqanlarına və tabe olduqları yuxarı təşkilata il ərzində 17 adda hesabat, o cümlədən 2 adda aylıq, 5 adda rüblük və 10 adda illik hesabat təqdim olunmuş, bu hesabatlarda doldurularaq təqdim olunmuş göstəricilərin ümumi sayı 478, yaxud bir hesabat üzrə orta hesabla 28 göstərici təşkil etmişdir.

Sorğuda iştirak etmiş fərdi sahibkarların cavablarına görə orta hesabla bir fərdi sahibkar tərəfindən bütün dövlət qurumlarına orta hesabla 5 hesabat və bu hesabatlarda ümumilikdə 58 göstərici (bir hesabat üzrə orta hesabla 12 göstərici) təqdim olunur.

Təhlil göstərir ki, hüquqi şəxslər fərdi sahibkarlarla müqayisədə ayrı-ayrı dövlət orqanlarına 3 dəfə çox hesabat təqdim edirlər.

Hüquqi şəxslər daha çox hesabatı Dövlət Statistika Komitəsinə (bütün hesabatların 46,6 faizi), Vergilər Nazirliyinə (19,7 faiz), Dövlət Sosial Müdafiə Fonduna (13,4 faiz) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (3,3 faiz) təqdim etmişlər. Aylıq hesabatların 51,6 faizi Dövlət Statistika Komitəsinə, 18,1 faizi Vergilər Nazirliyinə, 5,1 faizi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və 3,3 faizi Dövlət Sosial Müdafiə Fonduna və 2,0 faizi tabe olduğu yuxarı təşkilata, rüblük hesabatların 37,3 faizi Dövlət Statistika Komitəsinə, 21,0 faizi Dövlət Sosial Müdafiə Fonduna, 19,5 faizi Vergilər Nazirliyinə və 4,0 faizi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, illik hesabatların 50,1 faizi Dövlət Statistika Komitəsinə, 20,1 faizi Vergilər Nazirliyinə, 12,1 faizi Dövlət Sosial Müdafiə Fonduna və 2,4 faizi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunur. Həmçinin, hesabatlardakı göstəricilərin daha çox hissəsi – 41,2 faizi Dövlət Statistika Komitəsinə, 22,0 faizi Dövlət Sosial Müdafiə Fonduna, 16,5 faizi Vergilər Nazirliyinə və 2,0 faizi Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilən hesabatlarda öz əksini tapmışdır.

Fərdi sahibkarlar tərəfindən müxtəlif dövlət orqanlarına təqdim edilən hesabatların 39,3 faizi Vergilər Nazirliyinə, 34,5 faizi Dövlət Sosial Müdafiə Fonduna və 24,7 faizi Dövlət Statistika Komitəsinə təqdim edilmişdir. Aylıq hesabatların böyük əksəriyyəti - 75,0 faizi Dövlət Sosial Müdafiə Fonduna, 25,0 faizi isə Vergilər Nazirliyinə, rüblük hesabatların 36,6 faizi Vergilər Nazirliyinə, 33,6 faizi Dövlət Sosial Müdafiə Fonduna, 28,6 faizi Dövlət Statistika Komitəsinə, illik hesabatların 43,7 faizi Vergilər Nazirliyinə, 35,6 faizi Dövlət Sosial Müdafiə Fonduna və 18,6 faizi Dövlət Statistika Komitəsinə təqdim edilmişdir. Təqdim edilən hesabatlardakı göstəricilərin 38,2 faizi Dövlət Sosial Müdafiə Fonduna, 31,8 faizi Dövlət Statistika Komitəsinə və 29,1 faizi Vergilər Nazirliyinə təqdim edilən hesabatların payına düşür.

Beləliklə, hüquqi şəxslər və fərdi sahibkarlar hesabatları əsasən Dövlət Statistika Komitəsinə, Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edirlər. Sorğu aparılan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən Maliyyə; İqtisadiyyat və Sənaye; Energetika; Fövqəladə Hallar; Ekologiya və Təbii Sərvətlər nazirliklərinə və Əmlak Məsələləri Dövlət Komitəsinə isə daha az sayda hesabat təqdim edilir.

Dövlət orqanlarına təqdim edilən hesabatların sayı üzrə 2008-ci ilin müayinə nəticələrinə nisbətən 2014-cü ildə Dövlət Statistika Komitəsinin (2,3 faiz bəndi) və Vergilər Nazirliyinin (7,8 faiz bəndi) xüsusi payında azalma, Maliyyə Nazirliyində (0,9 faiz bəndi), Ekologiya və Təbii Sərvətlər Nazirliyində (0,2 faiz bəndi), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (0,5 faiz bəndi), İqtisadiyyat və Sənaye və Energetika nazirliklərində (0,3 faiz bəndi), Əmlak Məsələləri Dövlət Komitəsində (0,7 faiz bəndi), Dövlət Sosial Müdafiə Fondunda (0,7 faiz bəndi) isə artım müşahidə edilmişdir.

Dövlət orqanlarına təqdim edilən göstəricilərin sayı üzrə də 2008-ci ilin müayinə nəticələrinə nisbətən 2014-cü ildə Dövlət Statistika Komitəsinin (8,2 faiz bəndi) və Vergilər Nazirliyinin (12,2 faiz bəndi) xüsusi payında azalma, Maliyyə Nazirliyində (1,14 faiz bəndi), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (0,4 faiz bəndi), İqtisadiyyat və Sənaye və Energetika nazirliklərində (0,2 faiz bəndi), Əmlak Məsələləri Dövlət Komitəsində (1,5 faiz bəndi), Dövlət Sosial Müdafiə Fondunda (9,1 faiz bəndi) isə artım müşahidə edilmişdir.

Yuxarıda qeyd olunanlar bir daha onu göstərir ki, ötən 5 il ərzində Dövlət Statistika Komitəsində rəsmi statistika hesabatı formalarının təkmilləşdirilməsi və sadələşdirilməsi istiqamətində görülmüş işlərin nəticəsi olaraq respondentlərə düşən informasiya yükünün həcmi əhəmiyyətli dərəcədə azalmışdır.

Sorğuya cəlb edilmiş hüquqi və fiziki şəxslərdən toplanan bütün hesabatların 46,1 faizi Bakı şəhərinin, 15,8 faizi Aran, 9,8 faizi Gəncə-Qazax, 7,6 faizi Abşeron, 4,7 faizi Şəki-Zaqatala, 4,4 faizi Lənkəran, 3,8 faizi Naxçıvan, 3,5 faizi Quba-Xaçmaz, 2,7 faizi Dağlıq Şirvan, 1,6 faizi isə Yuxarı Qarabağ iqtisadi rayonunun payına düşmüşdür. Təqdim olunan göstəricilərdə Bakı şəhərinin xüsusi payı 49,0 faiz, Aran iqtisadi rayonunun payı 16,8 faiz, Gəncə-Qazax iqtisadi rayonunun payı 9,5 faiz, Abşeron iqtisadi rayonunun payı 5,9 faiz, Lənkəran iqtisadi rayonunun payı 5,2

faiz, Şəki-Zaqatala iqtisadi rayonunun payı 4,2 faiz, digər iqtisadi rayonların payı isə 9,4 faizdir.

Rəsmi statistika hesabatlarında tələb edilən məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərində mövcudluq səviyyəsi. Keçirilmiş müayinə nəticəsində müxtəlif dövlət orqanları tərəfindən tələb edilən məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərindəki mövcudluq səviyyəsi müəyyənləşdirilmişdir. Nəticələr göstərir ki, hesabat təqdim edən hüquqi şəxslərin 2958-i və ya 43,3 faizi məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərinin məlumatları ilə 90,0 faizdən çox üst-üstə düşdüyünü, 2435-i və ya 35,7 faizi məlumatların mövcudluq səviyyəsinin 60-90 faiz, 760-ı və ya 11,1 faizi 30-59 faiz çərçivəsində olduğunu qeyd etmişlər.

Fərdi sahibkarların 2655-i və ya 32,0 faizi məlumatların mövcudluq səviyyəsinin 90 faizdən çox, 2338-i və ya 28,2 faizi 60-90 faiz, 1208-i və ya 14,5 faizi 30-59 faiz olduğunu göstərirlər.

Hüquqi şəxslərin yalnız 4,5 faizi hesabat məlumatlarının mühasibat və ya digər ilkin uçot sənədlərinin məlumatları ilə uyğunluğunun 10,0 faizdən az olduğunu göstərdikləri halda, fərdi sahibkarlar üzrə bu göstərici 13,1 faiz olmuşdur.

Məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərindəki mövcudluq səviyyəsi 90,0 faizdən çox olan sahələrdən – kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 48,1 faiz, daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsi üzrə 46,3 faiz, peşə, elmi və texniki fəaliyyət sahəsi üzrə 45,9 faiz, təhsil sahəsi üzrə 45,5 faiz, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsi üzrə 43,6 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsi üzrə 40,6 faiz, digər sahələr üzrə 40 faizdən az olmuşdur. Mövcudluq səviyyəsinin 60-90 faiz olduğu sahələrdən – nəqliyyat və anbar təsərrüfatında 38,1 faiz, informasiya və rabitə sahəsində 36,9 faiz, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət üzrə 35,5 faiz, tikinti sahəsində 35,2 faiz, qalan sahələrdə isə 35 faizdən aşağı olmuşdur.

Mövcudluq səviyyəsinin 10 faizdən az olduğu sahələrdən - sənayedə 17,8 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 12,4 faiz, digər sahələrdə xidmətlərin göstərilməsi üzrə 8,7 faiz, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət üzrə 8,4 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 8,3 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 8,1 faiz, iqtisadiyyatın qalan sahələrində isə 8 faizdən aşağı olmuşdur.

2008-ci ilin müayinə nəticələri ilə müqayisədə 2014-cü ildə rəsmi statistika hesabatlarında tələb edilən məlumatların mühasibat və digər ilkin uçot sənədlərində mövcudluq səviyyəsi 90 faizdən çox olan respondenlərin çəkisi 8 faiz bəndi, mövcudluq səviyyəsi 60-90 faiz olan respondentlərin xüsusi çəkisi 7,5 faiz bəndi artdığı halda, mövcudluq səviyyəsi 30-59 faiz olan respondentlərin xüsusi çəkisi 3,9 faiz bəndi, mövcudluq səviyyəsi 10-29 faiz olan respondentlərin xüsusi çəkisi 5,2 faiz bəndi, mövcudluq səviyyəsi 10 faizdən az olan respondentlərin xüsusi çəkisi 6,4 faiz bəndi azalmışdır. Bu isə rəsmi statistika hesabatı formaları üzrə təqdim olunan statistik rəqəmlərin dürüstlüyünün təzahürüdür.

Rəsmi statistika hesabatlarının mövcud vəziyyətinin respondentləri qane etmə səviyyəsi. Sorğuda iştirak etmiş hüquqi şəxslərin 80,5 faizi hesabatların mövcud vəziyyətinin onları qane etdiyini, 17,0 faizi qismən qane etdiyini və 2,5 faizi qane etmədiyini göstərmişlər. Fərdi sahibkarların isə 85,1 faizi hesabatların mövcud vəziyyətinin onları qane etdiyini, 14,0 faizi qismən qane etdiyini və 0,9 faizi isə qane etmədiyini bildirmişlər.

Respondentlərin cavabları əsasında rəsmi statistika hesabatlarının mövcud vəziyyətinin sahələr üzrə aparılan təhlili göstərir ki, sahələrin əksəriyyətində hüquqi şəxslər mövcud vəziyyətin onları qane etdiyini bildirirlər. Müayinənin yekunlarına görə ölkə iqtisadiyyatının tikinti sferasında fəaliyyət göstərən respondentlərin 22,7 faizi, peşə, elmi və texniki fəaliyyət üzrə 18,1 faizi, ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə 17,1 faizi, nəqliyyat və anbar təsərrüfatı üzrə 16,6 faizi "qismən qane edir" cavabını vermişlər. Hesabatların mövcud vəziyyətinin respondentləri qane etmədiyi sahələr arasında inzibati və yardımçı xidmətlərin göstərilməsi (3,8 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (2,6 faiz), tikinti (2,2 faiz), ticarət; nəqliyyat vasitələrinin təmiri (2,1 faiz) daha çox seçilir.

2008-ci ilin müayinə nəticələri ilə müqayisədə 2014-cü ildə rəsmi statistika hesabatlarının respondentləri qane etmə səviyyəsi 2,7 faiz bəndi, qismən qane etmə səviyyəsi isə 1,5 faiz bəndi artmış, qane etməmə səviyyəsi isə 4,2 faiz bəndi azalmışdır. Bu müqayisəni hüquqi şəxslər üzrə apardıqda rəsmi statistika hesabatlarının respondentləri qane etmə səviyyəsinin 18,9 faiz bəndi artdığı, qismən qane etmə səviyyəsinin 8,8 faiz bəndi, qane etməmə səviyyəsinin isə 10,1 faiz bəndi azaldığı müəyyən edilmişdir. Fərdi sahibkar üzrə qane etmə səviyyəsi 0,7 faiz bəndi,

qismən qane etmə səviyyəsi isə 2,9 faiz bəndi artmış, qane etməmə səviyyəsi isə 3,6 faiz bəndi azalmışdır.

Hesabatlarda mövcud vəziyyətin qənaətbəxş olmadığının səbəblərini göstərən hüquqi şəxslərin 40,0 faizi əsasən hesabatların sayının çoxluğunu, 36,6 faizi göstəricilərin sayının çoxluğunu, 9,7 faizi eyni göstəricilərin təkrarlandığını, 7,3 faizi isə hesabatların mürəkkəb olduğunu qeyd etmişlər.

Fərdi sahibkarların 67,6 faizi göstəricilərin sayının çoxluğunu, 19,1 faizi hesabatların mürəkkəb olmasını, 6,5 faizi isə fəaliyyətinin tam əhatə olunmadığını səbəb kimi göstərmişlər.

Ayrı-ayrı sahələr üzrə rəsmi statistika hesabatlarının mövcud vəziyyətinin onları qane etmədiyinin səbəblərini qeyd edənlər əsasən hesabatların və göstəricilərin sayının çoxluğunu və hesabatların mürəkkəbliyini əsas gətirmişlər. Hesabatların sayının çoxluğunu səbəb gətirən sahələrdən peşə, elmi və texniki fəaliyyət (48,1 faiz), inzibati və yardımçı xidmətlərin göstərilməsi (40,0 faiz), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (36,2 faiz), təhsil (36,2 faiz), istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (35,6 faiz) və informasiya və rabitə (30,1 faiz) kimi sahələri qeyd etmək olar.

Göstəricilərin sayının çoxluğunu əsas səbəb kimi qeyd etmiş sahələrdən ticarət; nəqliyyat vasitələrinin təmiri (57,4 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (54,3 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (49,0 faiz), nəqliyyat və anbar təsərrüfatı (48,8 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (48,5 faiz), daşınmaz əmlakla əlaqədar əməliyyatlar (48,4 faiz), informasiya və rabitə (47,6 faiz), istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (42,5 faiz), tikinti (40,9 faiz) sahələrini göstərmək olar.

Müayinənin yekunlarının təhlili göstərmişdir ki, sorğu keçirilən respondentlərin daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə 16,1 faizi, digər sahələrdə xidmətlərin göstərilməsi üzrə 15,3 faizi, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə 14,4 faizi, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə 13,8 faizi, nəqliyyat və anbar təsərrüfatı üzrə 12,8 faizi, ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə 12,6 faiz, tikinti sahəsi üzrə 11,6 faizi hesabatların mürəkkəb olduğunu səbəb kimi qeyd etmişlər.

Orta hesabla bir hesabat formasının doldurulmasına sərf olunmuş vaxt. Müayinə ilə əhatə olunmuş hüquqi şəxslərin 53,9 faizi orta hesabla bir hesabat

formasının doldurulmasına bir adam-saatdan az, 34,0 faizi 1-2 adam-saat, 9,5 faizi 3-4 adam-saat, 1,3 faizi 5-6 adam-saat, 0,3 faizi 7-8 adam-saat, 1,0 faizi isə hesabatların doldurulmasına 8 adam-saatdan artıq vaxt sərf etdiklərini göstərmişlər. Fərdi sahibkarların 66,0 faizi orta hesabla hesabat formalarının doldurulmasına 1 adam-saatdan az, 26,8 faizi 1-2 adam-saat, 5,1 faizi 3-4 adam-saat, 1,6 faizi 5-6 adam-saat, 0,4 faizi 7-8 adam-saat, 0,1 faizi isə 8 adam-saatdan artıq vaxt sərf etdiklərini qeyd etmişlər.

Ayrı-ayrı sahələr üzrə göstəricilərin səviyyəsini təhlil edərkən müəyyən edilmişdir ki, bir hesabat formasının doldurulmasına bir adam-saatdan az vaxt sərf edən respondentlərin səviyyəsi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsi üzrə 76,6 faiz, digər sahələrdə xidmətlərin göstərilməsi sahəsi üzrə 70,7 faiz, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət üzrə 66,8 faiz, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsi üzrə 65,5 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi üzrə 65,1 faiz, nəqliyyat və anbar təsərrüfatı üzrə 62,8 faiz, peşə, elmi və texniki fəaliyyət sahəsi üzrə 60,6 faiz, qalan sahələr üzrə 60 faizdən aşağı olmuşdur.

Respondentlər arasında bir hesabat formasının doldurulmasına 1-2 adam-saat vaxtın sərf edildiyi sahələr əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (35,4 faiz), təhsil (34,4 faiz), tikinti (32,8 faiz), ticarət; nəqliyyat vasitələrinin təmiri (32,7 faiz), informasiya və rabitə (32,7 faiz), peşə, elmi və texniki fəaliyyət (31,6 faiz), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (31,3 faiz) sahələri olmuş, qalan sahələr üzrə nəticələr isə 30 faizdən aşağı alınmışdır.

Bir hesabat formasının doldurulmasına 3-4 adam-saat vaxt sərf edən respondentlərin səviyyəsi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə 10,7 faiz, təhsil sahəsində 9,0 faiz, nəqliyyat və anbar təsərrüfatı üzrə 8,3 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə 8,1 faiz, sənaye üzrə 8,0 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə 7,7 faiz, qalan sahələr üzrə isə 7 faizdən aşağı olmuşdur.

2008-ci ilin müayinə nəticələri ilə müqayisədə 2014-cü ildə orta hesabla bir hesabat formasının doldurulmasına sərf olunmuş vaxt 1 adam saatdan az olan respondentlərin xüsusi çəkisi 4,9 faiz bəndi artmış, sərf olunmuş vaxt 1-2 adam saat olan respondentlərin xüsusi çəkisi 2,1 faiz bəndi, sərf olunmuş vaxt 3-4 adam saat olan respondentlərin xüsusi çəkisi 0,8 faiz bəndi, sərf olunmuş vaxt 5-6 adam saat

olan respondentlərin xüsusi çəkisi 1,2 faiz bəndi, sərf olunmuş vaxt 7-8 adam saat olan respondentlərin xüsusi çəkisi 0,8 faiz bəndi azalmışdır.

Bu isə onu göstərir ki, hesabat formalarının sadələşdirilməsi və təkmilləşdirilməsi istiqamətində Dövlət Statistika Komitəsi tərəfindən görülmüş işlərin nəticəsi olaraq hüquqi və fiziki şəxslər tərəfindən hesabat formalarının doldurulmasına indi daha az vaxt sərf olunur.

Müayinəyə cəlb edilmiş hüquqi şəxslərin doldurulmasında daha çox çətinlik çəkdikləri rəsmi stastika hesabatı formaları - 1-əmək №-li "Əmək üzrə" illik (42,7 faiz), 1-müəssisə №-li "Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti, maliyyə nəticələri və əmlakı haqqında" illik (37,4 faiz) və 1-müəssisə №-li "Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti və maliyyə nəticələri haqqında" rüblük (7,4 faiz), 4-əmək №-li "İşçilərin sayı, hərəkəti və əmək haqqına dair" aylıq, rüblük, yarımillik (1,2 faiz), 1-SQ (istehsalçı) №-li "Sənaye məhsullarının istehsalçı qiymətləri, sənaye xarakterli xidmətlərin qiymətləri (tarifləri) və sənaye müəssisələri tərəfindən məhsul istehsalı məqsədilə əldə olunan xammal və materialların qiymətləri haqqında" aylıq (1,1 faiz) hesabat formalarıdır. Fərdi sahibkarlar isə daha çox 1- ticarət (fiziki şəxs) №-li "Fiziki şəxslərin ticarət fəaliyyətinə dair" rüblük (56,9 faiz), 1-fərdi sahibkarlıq (tikinti) №-li "Fərdi sahibkarların - fiziki şəxslərin fəaliyyəti haqqında" illik (17,6 faiz), 1-fərdi sahibkarlıq (sənaye) №-li "Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında" illik (13,2 faiz), 1-fərdi sahibkarlıq (xidmət) №-li "Fərdi sahibkarların - fiziki şəxslərin fəaliyyəti haqqında" rüblük (4,4 faiz) və 1-fərdi sahibkarlıq (sərnişin) №-li "Sərnişin daşınması ilə məşğul olan fərdi sahibkarın-fiziki şəxsin fəaliyyəti haqqında" illik hesabat formalarının (1,7 faiz) doldurulmasında çətinliklərlə qarşılaşdıqlarını qeyd etmişlər.

Statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsinə dair sualı hüquqi şəxs olan respondentlərin 96,1 faizi müsbət cavablandırmış, 3,9 faizi isə "xeyr" cavabını qeyd etmişdir. Fərdi sahibkarların isə 47,3 faizi statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim etdiyini, 52,7 faizi isə real vaxt rejimində təqdim etmədiyini bildirmişdir.

Ayrı-ayrı sahələrdə fəaliyyət göstərən hüquqi şəxslərin statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim etmə səviyyəsi yüksəkdir. Bu isə onu göstərir ki, hüquqi şəxslər tərəfindən hesabatların real vaxt rejimində təqdim edilməsi vərdişi tam formalaşmışdır. Müayinənin nəticələri bu qənaətə

gəlməyə imkan verir ki, statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi ilə bağlı iş əsasən fərdi sahibkarlarla aparılmalı və onlarda da bu vərdişin formalaşdırılmasına çalışılmalıdır. Fərdi sahibkarlarlar üzrə hesabat formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi səviyyəsinin yüksək olduğu sahələr - kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (67,6 faiz), tikinti (52,8 faiz) və digər sahələrdə xidmətlərin göstərilməsi (52,1 faiz) sahələridir. Digər sahələrdə isə bu göstərici 50 faizdən aşağıdır.

Statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi zamanı qarşıya çıxan çətinliklər. Respondentlər tərəfindən verilmiş cavabların təhlili nəticəsində müəyyən edilmişdir ki, hüquqi şəxslərin 39,2 faizi, fərdi sahibkarların isə 44,4 faizi statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi zamanı müəyyən çətinliklərlə qarşılaşırlar. Statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi zamanı daha çox çətinliklərlə qarşılaşan sahələr - peşə, elmi və texniki fəaliyyət (48,8 faiz), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (46,5 faiz) sahələri, ticarət; nəqliyyat vasitələrinin təmiri (41,8 faiz), nəqliyyat və anbar təsərrüfatı (41,6 faiz), sənaye (41,0 faiz), tikinti (40,6 faiz) və kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (40,3 faiz) sahələridir. Başqa sahələrdə isə bu göstərici 40 faizdən aşağıdır.

Qarşıya çıxan çətinliklərin növlərinə görə bölgüsünün təhlili zamanı hüquqi şəxs olan respondentlərin daha çox Dövlətstatkomun veb səhifəsinin yüklənməsində olan nasazlıqlardan (45,7 faiz), daxil edilən göstəricilərin sistem tərəfindən qəbulunda yaranan nasazlıqlardan (18,6 faiz) və texniki imkanların (kompyuter və internet) olmamasından (15,3 faiz) narazı olduqları, fərdi sahibkarların isə texniki imkanlarının (kompyuter və internet) olmamasını (42,4 faiz), Dövlətstatkomun veb səhifəsinin yüklənməsində olan nasazlıqları (29,6 faiz) və hesabatların elektron qaydada təqdim edilməsi üçün yetərli kadrların olmamasını (10,8 faiz) səbəb kimi göstərdikləri müəyyən edilmişdir.

Dövlətstatkomun veb səhifəsinin yüklənməsində olan nasazlıqlardan daha çox peşə, elmi və texniki fəaliyyət (48,7 faiz), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (48,2 faiz), informasiya və rabitə (46,7 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (45,7 faiz) sahələri, inzibati və yardımçı xidmətlərin göstərilməsi (43,9 faiz), daşınmaz əmlakla əlaqədar əməliyyatlar (43,5 faiz) və tikinti (43,2 faiz)

sahəsində fəaliyyət göstərən respondentlər, texniki imkanların (kompyuter və internet) olmamasından daha çox ticarət; nəqliyyat vasitələrinin təmiri (36,0 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (27,6 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (25,9 faiz) sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri, daxil edilən göstəricilərin sistem tərəfindən qəbulunda yaranan nasazlıqlardan isə daha çox təhsil (22,7 faiz), inzibati və yardımçı xidmətlərin göstərilməsi (20,5 faiz), nəqliyyat və anbar təsərrüfatı (20,1 faiz), informasiya və rabitə (19,3 faiz), istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (17,3 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (16,3 faiz) və kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (16,1 faiz) sahələrində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər narazılıqlarını bildirmişlər.

Statistika hesabatı formalarının doldurulması zamanı metodoloji göstərişlərdən istifadə səviyyəsi və istifadə olunmaması səbəbləri. Sahibkarlıq subyektləri tərəfindən verilmiş cavabların təhlili nəticəsində hüquqi şəxslərin 79,0 faizinin, fərdi sahibkarların isə 52,7 faizinin statistika hesabatı formalarının doldurulması zamanı metodoloji göstərişlərdən istifadə etdikləri müəyyən edilmişdir ki, bu da metodoloji göstərişlərdən istifadə edilməmə səbəblərinin araşdırılmasını zəruri edir.

Metodoloji göstərişlərdən istifadə edilməməsinin səbələrinə görə bölgüsünün təhlili zamanı respondentlərin daha çox metodoloji göstərişləri oxumağın vacib olmamasını əsas gətirərək (36,0 faiz), onların istifadəsindən imtina etdikləri müəyyən edilmişdir. Digər səbəblər sırasında Dövlətstatkomun veb səhifəsində metodoloji göstərişlərin mövcudluğu barədə informasiyaya malik olmamaları (31,5 faiz) və metodoloji göstərişlərin yüklənməsi zamanı qarşılaşdıqları çətinliklər (29,3 faiz) də vardır.

Metodoloji göstərişləri oxumağın vacib olmamasını əsas gətirən sahələrdən inzibati və yardımçı xidmətlərin göstərilməsi (43,0 faiz), informasiya və rabitə (42,2 faiz) və digər sahələrdə xidmətlərin göstərilməsi sahəsini (40,3 faiz), Veb səhifədə metodoloji göstərişlərin mövcudluğu barədə informasiyaya malik olmadıqlarını səbəb kimi göstərən sahələrdən təhsil (37,8 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (35,5 faiz) və nəqliyyat və anbar təsərrüfatı (35,2 faiz) sahələrini, metodoloji göstərişlərin yüklənməməsini əsas kimi göstərən sahələrdən daşınmaz əmlakla əlaqədar əməliyyatlar (40,5 faiz), sənaye (38,0 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı

və balıqçılıq (33,3 faiz) və nəqliyyat və anbar təsərrüfatı (29,9 faiz) sahələrini qeyd etmək mümkündür.

Statistika hesabatı formalarının elektron formada təqdimatı zamanı rayon (şəhər) statistika idarələrinin köməyindən yararlanma səviyyəsi və ən çox yardıma ehtiyac duyulan sahələr. Sahibkarlıq subyektləri tərəfindən sorğulara verilmiş cavablardan belə müəyyən edilmişdir ki, hüquqi şəxslərin 98,0 faizi, fərdi sahibkarların isə 91,2 faizi statistika hesabatı formalarının doldurulması zamanı rayon (şəhər) statistika idarələrinin əməkdaşlarının köməyindən yararlana bilir.

Göstəricilərin düzgün qaydada, hesabat forması üzrə təqdimatı istiqamətində daha çox nəqliyyat və anbar təsərrüfatı (50,6 faiz), informasiya və rabitə (49,1 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (48,0 faiz), ticarət; nəqliyyat vasitələrinin təmiri (47,6 faiz), təhsil (47,0 faiz), istirahət, əyləncə və incəsənət (46,9 faiz), sənaye (46,3 faiz) və peşə, elmi və texniki fəaliyyət (46,1 faiz) sahələrində fəaliyyət göstərən respondentlər, səhv təqdim edilmiş statistik məlumatlar üzrə düzəlişlərin edilməsi istiqamətində daha çox inzibati və yardımçı xidmətlərin göstərilməsi (29,4 faiz), daşınmaz əmlakla əlaqədar əməliyyatlar (28,9 faiz), tikinti (28,2 faiz), informasiya və rabitə (27,0 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (26,9 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə (26,7 faiz), ticarət; nəqliyyat vasitələrinin təmiri (26,5 faiz), peşə, elmi və texniki fəaliyyət (26,0 faiz) sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri, metodoloji göstərişlərin izahı istiqamətində isə daha çox kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində (31,4 faiz), təhsil (28,7 faiz), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (27,8 faiz), sənaye (27,3 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (27,0 faiz), tikinti (26,7 faiz), istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (25,4 faiz) və daşınmaz əmlakla əlaqədar əməliyyatlar (25,1 faiz) sahələrində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər yardıma ehtiyac duyduqlarını bildirmişlər.

İnformasiya yükünün yüngülləşdirilməsi ilə bağlı təkliflərin 85,9 faizi hüquqi şəxslər tərəfindən, 14,1 faizi isə fiziki şəxslər tərəfindən irəli sürülmüşdür.Hüquqi və fiziki şəxslər tərəfindən verilmiş təkliflərin təhlili göstərir ki, onların bir neçə istiqamətdə qruplaşdırılması mümkündür. Təkliflər əsasən aşağıdakılardır:

- hesabatların sayının azaldılması;
- hesabatlardakı göstəricilərin sayının azaldılması;

- hesabatlarda təkrar olunan göstəricilərin ləğv edilməsi;
- hesabatların təqdim olunma tarixlərinin uzadılması;
- bir sıra statistika hesabatlarının birləşdirilməsi;
- fiziki şəxslər tərəfindən hesabatların təqdimatının online rejiminə tam keçirilməsi;
- hesabatların və metodoloji göstərişlərin sadələşdirilməsi;
- hesabatların təqdimatı zamanı Veb səhifədə olan donmaların qarşısının alınması üçün internetin sürətinin və serverin gücləndirilməsi;
- hesabat məlumatları üzrə proqram təminatında nəzarətin gücləndirilməsi.

Nəticələr və irəli sürülən təkliflər.

1. Rəsmi statistika sahəsində artıq növbəti dəfə olaraq sahibkarlara düşən informasiya yükü, mərkəzi icra hakimiyyəti orqanlarının tələbi ilə sahibkarlıq subyektləri tərəfindən tərtib olunan hesabat məlumatlarının həcmi müəyyənləşdirilmişdir. Cari müşahidə həyata keçirilməklə rəsmi statistika hesabatlarının mövcud vəziyyəti bilavasitə respondentlər tərəfindən qiymətləndirilmiş, məlumatların hazırlanması üçün sərf olunan vaxt, onların bu sahədə qarşılaşdıqları əsas çətinliklər və təkliflər öyrənilmişdir.

2. Təsərrüfat subyektləri tərəfindən hesabatlar əsasən Dövlət Statistika Komitəsinə, Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna və müəssisələrin tabe olduğu yuxarı təşkilatına (olduğu təqdirdə) təqdim olunur. İnzibati qurumlara təqdim olunan hesabatlar və onlarda olan göstəricilərin sayı müvafiq dövlət siyasətinin aparılması və istifadəçilərin məlumatlara olan tələbatının ödənilməsinə yönəldilmişdir. Bununla yanaşı, müxtəlif dövlət qurumları tərəfindən təsərrüfat subyektləri üçün hesabatların tərtibində informasiya yükünün nəzərə alınması, onun optimallaşdırılması və təkmilləşdirilməsinin əsas meyarlardan biri kimi nəzərə alınması vacibdir.

3. Respondentlər tərəfindən təqdim olunan rəsmi statistika hesabatlarında əks olunan məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərində mövcud olma səviyyəsinin təhlili onu göstərir ki, hüquqi şəxslərin 70 faizə yaxın hissəsi, fiziki şəxslərin isə 60 faizə yaxın hissəsi tərəfindən təqdim olunan statistik məlumatların mühasibat və ya digər ilkin uçot sənədlərində əks olunma səviyyəsi 60 faizdən

yuxarıdır. Qeyd olunanları nəzərə alaraq, gələcəkdə rəsmi statistika və digər hesabatların tərtibində məlumatların təsərrüfat subyektlərinin ilkin uçot sənədləri ilə uyğunluq səviyyəsinin təhlil olunması və bu istiqamətdə işlərin daha da gücləndirilməsi zəruridir.

4. Rəsmi statistika hesabatlarının mövcud vəziyyəti hüquqi şəxslərin 80,5 faizini qane edir, 17,0 faizini qismən qane edir və 2,5 faizini isə qane etmir. Fərdi sahibkarların isə 99,1 faizi hesabatların hazırkı səviyyəsindən tam və ya qismən razıdır. Buna baxmayaraq, hesabatların doldurulmasında çətinlikləri olan, onların mövcud vəziyyətini qənaətbəxş hesab etməyən respondentlərin rəy və təkliflərini nəzərə alaraq bəzi statistika hesabatı formalarının təkmilləşdirilməsi və sadələşdirilməsi məqsədəuyğundur.

5. Hesabatlardakı mövcud vəziyyəti qənaətbəxş hesab etməyən hüquqi şəxslərin 40,0 faizi hesabatların sayının çoxluğunu, 36,6 faizi göstəricilərin sayının çoxluğunu, 9,7 faizi isə göstəricilərin təkrarlanmasını səbəb kimi qeyd etmişlər. Fərdi sahibkarların isə 67,6 faizi göstəricilərin sayının çoxluğunu, 19,1 faizi isə hesabatların mürəkkəb olmasını əsas gətirmişlər. Dövlət Statistika Komitəsinin prioritetilərindən biri də bilavasitə informasiya yükünün yüngülləşdirilməsi üçün hesabatlardakı göstəricilərin sayının azaldılması; hesabatlarda təkrar olunan göstəricilərin ləğv edilməsi (ilkin və dəqiqləşdirilmiş məlumatların alınmasına xidmət edən hesabat məlumatları istisna olmaqla); hesabatların təqdim olunma tarixlərinin təhlil olunması; onların sadələşdirilməsi və s. sahəsində məqsədyönlü fəaliyyətin gücləndirilməsidir.

6. Bir hesabat formasının doldurulmasına sərf edilmiş vaxt beynəlxalq təcrübə baxımından norma daxilindədir. Belə ki, hüquqi şəxslərin demək olar ki, yarısı, fərdi sahibkarların isə 66,0 faizi bir hesabat formasının doldurulmasına bir adam-saatdan az vaxt sərf etmişlər.

7. Statistika hesabatı formalarının elektron formada real vaxt rejimində təqdim edilməsi səviyyəsinin təhlili göstərir ki, hüquqi şəxslərin 96 faizi, fərdi sahibkarların yarısı hesabat formalarını elektron formada real vaxt rejimində təqdim edirlər. Hüquqi şəxslərin 40 faizi, fərdi sahibkarların isə 45 faizi hesabat formalarının elektron formada real vaxt rejimində təqdimatı zamanı müəyyən çətinliklərlə qarşılaşırlar.

8. Dövlətstatkomun veb səhifəsinin yüklənməsində olan nasazlıqlar, daxil edilən göstəricilərin sistem tərəfindən qəbulunda yaranan nasazlıqlar, texniki imkanların (kompyuter və internet) olmaması respondentlər tərəfindən əsas çətinlik kimi qiymətləndirmişdir. Bununla əlaqədar hesabatların təqdim edilməsi dövründə sistem daxilində yaranan nasazlıqların aradan qaldırılması üçün ümumi sistemin daha da gücləndirilməsi zəruridir. Habelə hesabatların doldurulmasında çətinlikləri olan, hesabatı mürəkkəb hesab edən respondentlərlə qarşılıqlı ünsiyyət yaradılması, onların mütəxəssisləri üçün treninqlər təşkil edilməlidir.

9. İnformasiya yükünün yüngülləşdirilməsi ilə bağlı təkliflər irəli sürülmüşdür. Təsərrüfat subyektləri əsas etibarilə hesabatlardakı göstəricilərin sayının azaldılmasını, hesabatlarda təkrar olunan göstəricilərin ləğv edilməsini, hesabatların sayının azaldılmasını, bir sıra statistika hesabatlarının birləşdirilməsini, hesabatların təqdim olunma tarixlərinin uzadılmasını və hesabatların sadələşdirilməsini təklif edirlər.

Daha ətraflı məlumatlar əlavələrdə verilmişdir.

ƏLAVƏLƏR

Müşahidə olunmuş təsərrüfat subyektlərinin sayı (fəaliyyət növləri üzrə), vahid

Cədvəl 1

İqtisadi fəaliyyət növləri	Cəmi	o cümlədən:	
		Hüquqi şəxslər	Fiziki şəxslər
A	**1**	**2**	**3**
Cəmi	**15134**	**6828**	**8306**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	545	420	125
Sənaye	1822	860	962
Tikinti	911	735	176
Ticarət; nəqliyyat vasitələrinin təmiri	5101	975	4126
Nəqliyyat və anbar təsərrüfatı	752	422	330
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	756	232	524
İnformasiya və rabitə	443	295	148
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	230	152	78
Peşə, elmi və texniki fəaliyyət	932	643	289
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	408	337	71
Təhsil	583	517	66
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	576	500	76
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	427	297	130
Digər sahələrdə xidmətlərin göstərilməsi	1648	443	1205

Müşahidə olunmuş təsərrüfat subyektlərinin bölgüsü (fəaliyyət növləri üzrə), faiz

Cədvəl 2

İqtisadi fəaliyyət növləri	Cəmi	o cümlədən:	
		Hüquqi şəxslər	Fiziki şəxslər
A	**1**	**2**	**3**
Cəmi	**100,0**	**100,0**	**100,0**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	3,6	6,2	1,5
Sənaye	12	12,6	11,6
Tikinti	6	10,8	2,1
Ticarət; nəqliyyat vasitələrinin təmiri	33,7	14,3	49,7
Nəqliyyat və anbar təsərrüfatı	5	6,2	4
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	5	3,4	6,3
İnformasiya və rabitə	2,9	4,3	1,8
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	1,5	2,2	0,9
Peşə, elmi və texniki fəaliyyət	6,2	9,4	3,5
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	2,7	4,9	0,8
Təhsil	3,9	7,6	0,8
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	3,8	7,3	0,9
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	2,8	4,3	1,6
Digər sahələrdə xidmətlərin göstərilməsi	10,9	6,5	14,5

Müşahidə olunmuş təsərrüfat subyektlərinin müqayisəsi (fəaliyyət növləri üzrə), faizlə

Cədvəl 3

İqtisadi fəaliyyət növləri	Cəmi		o cümlədən:			
			Hüquqi şəxslər		Fiziki şəxslər	
	2014	2008	2014	2008	2014	2008
A	**1**	**2**	**3**	**4**	**5**	**6**
Cəmi	**100**	**100**	**45,1**	**18,4**	**54,9**	**81,6**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	3,6	3,4	6,2	8,4	1,5	2,3
Sənaye	12,0	8,8	12,6	25,7	11,6	5,0
Tikinti	6,0	2,9	10,8	11,6	2,1	0,9
Ticarət; nəqliyyat vasitələrinin təmiri	33,7	70,4	14,3	24,3	49,7	80,8
Nəqliyyat və anbar təsərrüfatı	5,0	1,8	6,2	7,8	4,0	0,5
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	5,0	6,1	3,4	2,0	6,3	7,0
İnformasiya və rabitə	2,9	-	4,3	-	1,8	-
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	1,5	5,3	2,2	15,6	0,9	3,0
Peşə, elmi və texniki fəaliyyət	6,2	-	9,4	-	3,5	-
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	2,7	-	4,9	-	0,9	-
Təhsil	3,9	-	7,6	-	0,8	-
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	3,8	-	7,3	-	0,9	-
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	2,8	-	4,3	-	1,6	-
Digər sahələrdə xidmətlərin göstərilməsi	10,9	1,2	6,5	4,5	14,5	0,5

Müşahidə olunmuş təsərrüfat subyektlərinin sayı (regionlar üzrə), vahid

Cədvəl 4

İqtisadi və inzibati rayonlar	Cəmi	o cümlədən:	
		Hüquqi şəxslər	Fiziki şəxslər
A	**1**	**2**	**3**
Cəmi	**15134**	**6828**	**8306**
Bakı şəhəri	**6223**	**3448**	**2775**
Binəqədi rayonu	659	295	364
Qaradağ rayonu	217	78	139
Xəzər rayonu	269	115	154
Səbail rayonu	665	524	141
Sabunçu rayonu	456	137	319
Suraxanı rayonu	361	84	277
Nərimanov rayonu	813	569	244
Nəsimi rayonu	843	606	237
Nizami rayonu	531	306	225
Xətai rayonu	664	329	335
Yasamal rayonu	737	403	334
Pirallahı rayonu	8	2	6
Abşeron iqtisadi rayonu	**1001**	**360**	**641**
Xızı rayonu	29	23	6
Abşeron rayonu	333	125	208
Sumqayıt şəhəri	639	212	427
Gəncə-Qazax iqtisadi rayonu	**1708**	**601**	**1107**
Gəncə şəhəri	609	224	385
Qazax rayonu	125	46	79
Ağstafa rayonu	102	38	64
Tovuz rayonu	174	52	122
Şəmkir rayonu	196	56	140
Gədəbəy rayonu	135	29	106
Daşkəsən rayonu	50	26	24
Samux rayonu	72	31	41
Göygöl rayonu	94	40	54
Goranboy rayonu	117	36	81
Naftalan şəhəri	34	23	11

İqtisadi və inzibati rayonlar	Cəmi	o cümlədən:	
		Hüquqi şəxslər	Fiziki şəxslər
A	**1**	**2**	**3**
Şəki-Zaqatala iqtisadi rayonu	**907**	**319**	**588**
Balakən rayonu	130	38	92
Zaqatala rayonu	200	66	134
Qax rayonu	104	39	65
Şəki rayonu	251	96	155
Oğuz rayonu	74	32	42
Qəbələ rayonu	148	48	100
Lənkəran iqtisadi rayonu	**859**	**299**	**560**
Astara rayonu	125	39	86
Lənkəran rayonu	276	109	167
Lerik rayonu	63	23	40
Yardımlı rayonu	46	24	22
Masallı rayonu	188	43	145
Cəlilabad rayonu	161	61	100
Quba - Xaçmaz iqtisadi rayonu	**693**	**254**	**439**
Qusar rayonu	113	42	71
Xaçmaz rayonu	212	59	153
Quba rayonu	211	77	134
Şabran rayonu	81	45	36
Siyəzən rayonu	76	31	45
Aran iqtisadi rayonu	**2473**	**966**	**1507**
Göyçay rayonu	166	60	106
Beyləqan rayonu	139	52	87
Ağcabədi rayonu	135	50	85
Bərdə rayonu	183	56	127
Neftçala rayonu	121	33	88
Biləsuvar rayonu	122	46	76
Salyan rayonu	150	51	99
Yevlax rayonu	154	58	96
Mingəçevir şəhəri	217	85	132
Ağdaş rayonu	122	43	79
Ucar rayonu	104	56	48

İqtisadi və inzibati rayonlar	Cəmi	o cümlədən:	
		Hüquqi şəxslər	Fiziki şəxslər
A	**1**	**2**	**3**
Zərdab rayonu	77	34	43
Kürdəmir rayonu	117	47	70
İmişli rayonu	155	63	92
Saatlı rayonu	108	42	66
Sabirabad rayonu	154	62	92
Hacıqabul rayonu	72	39	33
Şirvan şəhəri	177	89	88
Yuxarı Qarabağ iqtisadi rayonu	**323**	**125**	**198**
Füzuli rayonu	114	48	66
Ağdam rayonu	123	37	86
Tərtər rayonu	86	40	46
Dağlıq Şirvan iqtisadi rayonu	**419**	**175**	**244**
Qobustan rayonu	49	23	26
İsmayıllı rayonu	148	69	79
Ağsu rayonu	94	33	61
Şamaxı rayonu	128	50	78
Naxçıvan iqtisadi rayonu	**528**	**281**	**247**
Sədərək rayonu	20	15	5
Şərur rayonu	50	22	28
Babək rayonu	71	25	46
Naxçıvan şəhəri	211	139	72
